Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 222 (1350) 2 dekabr - 3 dekabr 2016-cı il

# QOBUSTAN: ARZULARIN İŞIĞINDA

(əvvəli ötən saylarımızda)

### *Yeni yollar inkişafdan xəbər verir*

**Qobustan şəhərində yolların böyük hissəsinin asfaltlanmasına nail olunsa da, su və kanalizasiya şəbəkəsinin çəkilişi nəticəsində tamamilə sıradan çıxmışdı. Hazırda şəhərdə 7 km-dən artıq yola yenidən asfalt örtüyü vurulmuşdur. Hava şəraiti imkan verən kimi bu işlər davam etdiriləcəkdir.**

Kənd yollarının təmirində davam etdirilib. Qeyd olunduğu kimi cənab Prezidentin sərəncamına əsasən Təklə-Sündü-Xilmilli yolunda son tamamlama işləri aparılmışdır.

Daxili imkanlar hesabına Nabur kəndində 12 km-dən artıq yol çınqıl və qara örtüklü əsasla düzəldilmiş, Cəyirli kəndində 1 km-ə yaxın qara örtüklü yol çəkilmişdir.

Hazırda rayonun ərazisində "Polad" Yol Yapı Şirkəti tərəfindən Bakı-Şamaxı yolunun 4 zolağa genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində qarşıda duran ən mühüm məsələ 15 km uzunluqda olan Qobustan-Poladlı yolunun çəkilməsidir. Bu məsələ 2014-2018-ci ilin Dövlət Proqramına da daxil edilmişdir.

### *Heydər Əliyev Fondunun dəsdəyinə minnətdarlıq*

Rayonda rabitəxidmətlərinin yaxşılaşdırılması istiqamətində də bir sıra işlər görülmüşdür.

Kənd elektron ATS-lərində olan generatorlar 30 ədəd yeni akkumlyatorlarla təmin edilmiş, şəhər və kəndlərdə rabitə xətləri səliqəyə salınmışdır.-



**"...Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır. İnsanların yaşaması və işləməsi üçün bütün imkanlar vardır. İş yerləri açılır, məktəblər, xəstəxanalar, idman qurğuları tikilir, yollar, su kəməri çəkilir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Şəhərdə 400 metr kabel kanalı, 3 ədəd quyu tikilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Çuxanlı kəndində 128 yerlik xətt şəbəkəsi tikilmiş, tikintidə 62 dəmir dayaq, 13 kabel meydançası, 13 travers, 1700 metr müxtəlif markalı kabeldən istifadə edilmiş, 1 ədəd komplekt ATS quraşdırılmışdır. Rayon rəhbərliyi və rayon əhalisi bu diqqətə görə Heydər Əliyev Fonduna, şəxsən Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığını bildirir.

Təklə kəndində 90 dayaq, 1450 metr kabeldən, Sündü kəndində 14 dəmir dayaqdan, Şəhər elektron ATS-də 22 ədəd dəmir dayaq, 3670 m kabel, 15 ədədabunə qutusu hesabına təmir işləri aparılaraq xidmətin keyfiyyəti artırılmışdır.Bu sahədə işlər davam etdirilir.

### *Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir*

Bu ilin doqquz ayında əhalinin sosial müdafiəsi məsələləri də diqqət mərkəzində saxlanılmışdır. İlin 9 ayında 130 nəfərə pensiya, 242 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir. Rayonda 72 nəfər tənha, kimsəsiz yaşayan ahıl vətəndaşa 9 nəfər sosial işçi tərəfindən xidmət göstərilir.19 nəfər əlil vətəndaş isə pulsuz putyovkalarla təmin edilmişdir.

Novruz,Ramazan və Qurban bayramlarının hər birində 520 ailəyə İcra hakimiyyəti tərəfindən bayram payları verilmişdir.

Əhalinin məşğulluğunu təmin etmək məqsədilə cənab Prezidentin tapşırığı ilə bu ilin fevral ayında rayonda müxtəlif sahələr üzrə 212 ictimai iş yeri açılmış, 203 nəfər həmin iş yerlərində müvafiq işlə təmin olunmuşdur.

Cənab Prezidentin göstərişi ilə çoxmənzilli binaların təmiri üçün ayrılmış vəsait hesabına 1 çoxmənzilli binanın fasadı, 6 binanın dam örtüyü tamamilə dəyişdirilmişdir.

Qobustan şəhərində aztəminatlı ailələr üçün güzəştli ipoteka şərtləri ilə 36 mənzilli yaşayış binasının tikintisi nəzərdə tutulmuşdur. Binanın tikintisi üçün 1,6 ha torpaq sahəsi müəyyənləşdirilmişdir.

Aprel döyüşlərində şəhid olmuş Bədəlli kənd sakini Müstəcəbov Orxan Ələsgər oğlunun qəbrüstü abidəsinin tikintisi başa çatdırılmışdır. Eyni zamanda Yekəxana kənd tam orta məktəbində şəhidin adına bulaq kompleksi inşa edilərək istifadəyə verilmişdir.



### *Abadlıq və quruculuq işlərində yeniliklər*

Yaşıllıqların salınması və qorunması işinə xüsusi diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş 500 nəfərin iştirakı ilə keçirilən ümumrayon iməciliyində 1600 ədəd ağac və qızılgül kolları əkilmişdir. Ümumilikdə ilin doqquz ayında rayonun yaşayış məntəqələrində 7,0 mindən artıq ağac və qızılgül kolları əkilmişdir.

Rayonda tikinti quruculuq işləri davam edir. Cənab Prezidentin sərəncamı ilə inşasına başlanmış 50 çarpayılıq xəstəxana binasının tikintisi davam etdirilir. Bu il Kənd Təsərrüfatı İdarəsinin müasir binasının açılışı olub. Eyni zamanda Cəzaçəkmə Müəssisələrindən Azad edilmiş şəxslər üçün 50 yerlik adaptasiya mərkəzinin tikintisi başa çatmış, son tamamlama işləri aparılır. 3 Qarabağ əlili və 1 şəhid ailəsi üçün fərdi mənzillərin tikintisi davam edir. Rayonun daxili imkanları hesabına 4 yataq əlili üçün yaşayış evinin tikitisinə başlanılmışdır. 1-ci qrup hərbi xidmət əlili Zahidov Tural Müşfiq oğlunun evinin təmiri ilə əlaqədar isə qismən köməklik göstərilmişdir.

(ardı gələn sayımızda)

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ